UOT: 338-23

Arzu Nurəddin qızı RÜSTƏMOVA
Azərbaycan Kooperasiya Universitetinin
"Beynəlxalq ticarət və logistika" kafedrasının dosenti, i.f.d.
arzurustamova61@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.004.329

QLOBAL ƏRZAQ PROBLEMİ VƏ ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİNATI İSTİQAMƏTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi- ərzaq istehsalı, bölgüsü, mübadiləsi və istehlakı dünya təsərrüfat sisteminin funksionallığının qorunub saxlanılmasından ibarətdir.

Tədqiqatın metodologiyası- tədqiqat işində təkliflər, yeniliklər, müqayisəli təhlil və sistemli yanaşma metodlarından istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti - müasir dövrdə qlobal iqlim dəyişikliklərinin təsiri altında ərzaq təhlükəsizliyinin qorunub saxlanması, texnologiyanın inkişaf etdiyi bir dövrdə qida məhsulları istehsalının genişləndirilməsi, həmçinin artırılması, kənd təsərrüfatı sektoru sahələrinin və eləcə də aqrar sahələrin yüksək texnologiyalar əsasında inkişaf etdirilməsi, əhalinin sağlam qida ilə təmin edilməsi məsələləri əsas götürülmüşdür.

Təqdiqatın nəticəsi - beynəlxalq səviyyədə tənzimlənən milli ərzaq ehtiyatlarının yaradılması, inkişaf etmiş ölkələrin beynəlxalq kənd təsərrüfatı məhsulları satışında payının davamlı olaraq artırılması yolu ilə onların qloballaşma prosesinin mənfi təzahürlərindən beynəlxalq səviyyədə müdafiə olunması və s. məsələlərin qeyd edilməsi nəzərdə tutulmuşdur.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - ərzaq çatışmazlığının əvvəlcədən xəbər verilməsi sistemi gücləndirilməli, beynəlxalq miqyasda bazarların monitorinqi, daha çox investisiyaların yatırılması, hər bir ölkənin qida məhsulları üzrə özünütənzimetmə mexanizmlərinin formalaşdırılması və s. kimi məsələlər nəzərdə tutulmuşdur.

Açar sözlər: beynəlxalq ərzaq təhlükəsizliyi, kənd təsərrüfatı məhsulları, ərzaq təchizatı, qlobal ərzaq problemi.

Giriş

Məlum olduğu kimi qida məhsullarına olan tələbatın ödənilməsi əhalinin həyat səviyyəsini xarakterizə edən mühim arqument olmaqla cəmiyyət üzvlərinin yaşayış imkanlarının nə dərəcədə reallaşdırılmasını şərtləndirir. Bu proses əslində fasiləsiz, davamlı xarakter daşıyır, ən azı ona görə ki, bəşəriyyət heç zaman istehlakı dayandıra bilməz, istehlakın dayandırılması hər bir fərdin fiziki mövcudluğunun sonu deməkdir. Odur ki, qida məhsullarının istehsalı davamlı olaraq artırılmalıdır. Məhz bu baxımdan bəşəriyyətin bütün tarixi ərzində ərzaq təminatının yaxşılaşdırılması beynəlxalq miqyas almaqla ölkələrin milli təhlükəsizliyində öz aktuallığını saxlamışdır.

Beynəlxalq ərzaq təhlükəsizliyi ideyası XX əsrin 70-ci illərinin əvvəllərində əsasən inkişaf etməkdə olan ölklərdə ərzaq resurslarının ciddi surətdə çatışmazlığı və bu problemin gələcəkdə qarşısının alınması və onun bir daha təkrar olunmaması zərurətindən yaranmış və inkişaf etmişdir.

Bu gün qlobal problemlər içərisində ərzaq problemi daha kəskinliyi ilə fərqlənir. Bu problem həm də özünün birbaşa insanla bağlı fizioloji və yaşam tələbləri baxımından ön sıraya çıxır. Problemin etnogenezi bəşər sivilizasiyasının tarixi köklərinə qədər irəliləyir. Lakin o, yüz ildə daha miqyaslı və qlobal xarakter daşımaqdadır.

Ərzaq istehsalı bölgüsü, mübadiləsi və istehlakı qlobal təsərrüfat sisteminin funksionallığının mühüm tərkib hissəsi kimi çıxış edərək dünya siyasətinin prioritetləri sırasında xüsusi yer tutur. Dünya təsərrüfat fəaliyyətinin əsas subyekti və obyekti olan insanın, işçi qüvvəsinin həyat fəaliyyəti birbaşa olaraq ərzaq təminatından asılıdır. Qlobal miqyasda ərzaq istehsalı və istehlakçı

arasında tarazlaşma meylini stimullaşdırmaq imkanı hələ də məhdud olaraq qalır. Məsələ ondadır ki, inkişaf etmiş ölkələrdə ərzaq kompleksinin intensiv inkişafı əhalinin təbii artımının yavaşıması, ənənəvi və az məhsuldar təsərrüfatçılığın üstünlük təşkil etdiyi inkişaf edən ölkələrdə isə yüksək təbii artım səciyyəvidir.

Bəşər varlığının bütün mərhələlərində ərzaq təminatının əsas mənbəyi kimi kənd təsərrüfatı çıxış etmiş və etməkdədir. Hazırda planetin 20%-nin həyat fəaliyyəti kənd təsərrüfatı sferası ilə bağlıdır. İnkişaf etmiş ölkələrdə bu göstərici 5% olduğu halda, inkişaf etməkdə olan ölkələrdə 50% -dən çoxdur. Ərzaq məhsulları içərisində insan qidasının əsasını (50%) taxıl təşkil edir və onun nisbəti heyvandarlıq məhsulları (1 kq ət istehsal üçün 7 kq taxıl) hesabına dəyişir. Vurğulanmalıdır ki, XX əsrdə əkinçilik və heyvandarlıqda təşkilati, texniki və texnoloji yeniliklərin tətbiqi ilə bağlı nəhəng nailiyyətlər əldə olunmasına baxmayaraq, dünya əhalisinin ərzaq təminatlılığı problemi qəti həllini tapmamış qalmışdır. Yeni əsrdə planetin artan əhalisi ilə biosferin imkanları arasında disproporsiyaların dəyişməsi zəminində problem daha kəskin xarakter almışdır.

Dünya təsərrüfatının qloballaşması və beynəlxalq əmək bölgüsünün dərinləşməsi

Kənd təsərrüfatı məhsllarının əsas mənbəyini torpaq resursları təşkil edir. Bu məqsədlər üçün nəhəng torpaq resursları Avstraliya, Şimalı Amerika və Yeni Zellandiyada daha çoxdur. Region və ölkələrdə kənd təsərrüfatında məşğul olanlara adekvat torpaq sahəsi düşür. Bu, dünya üzrə hazırda bir insan üçün 3,7 hektar sahəyə bərabərdir. Həmin göstərici inkişaf etmiş ölkələrdə 2,2, Qərbi Avropada 12, Latın Amerikasında13,8, Şimalı Amerikada 155 və izafi olaraq Avstriyada 671 hektardır.

Dünya təsərrüfatının qloballaşması və beynəlxalq əmək bölgüsünün dərinləşməsi ümumilikdə beynəlxalq ticarətin inkişafını artırır. Lakin kənd təsərrüfatı xammalının və ərzaq resurslarının beynəlxalq ticarətinin artım sürəti hazır sənaye məhsullarına nisbətən geri qalır. Ona görə də, dünya ticarət dövriyyəsində aqrar sahədən olan məhsulların xüsusi çəkisi azalaraq cəmi ixracın 12%-ni təşkil etmişdir. Bu vəziyyət aqrar sahədən olan ixracın zəif artdığını göstərir. Real gerçəklikdə idxal və ixrac istər fiziki və istərsə də dəyər baxımından ardıcıl olaraq artır. Bütövlükdə kənd təsərrüfatı istehsalının həcminə və eləcə də ərzaqla təmin olunma dərəcəsinə görə ayrı-ayrı ərazi və ölkələr bir-birindən kəskin fərqlənirlər. Lakin beynəlxalq ticarətin inkişafı nəticəsində dünya miqyasında bir ölkədə olan qıtlıq digər ölkələrdə artıq məhsullarla əvəz edilə bilir. Beləliklə, dövlətlər arasında ərzaq məhsullarının satışı həyata keçirilir.

Əhalinin həyat səviyyəsi “İstehlak səbəti” və “Yaşayış minimumu” göstəricilərilə təhlil olunur. İstehsal səbəti bir il (ay) ərzində orta hesabla insanın və ya ailənin zəruri ehtiyaclar tələbini ödəyən əmtəə və xidmətlər çeşidini əks etdirir. Belə çeşid istehlak səbətinin mövcud qiymətlər üzrə dəyərindən irəli gələrək yaşayış minimumunun (minimum istehlak büdcəsi) hesablanmasında istifadə olunur. İstehlak səbəti, həmçinin, istehlakın real və hesablanan səviyyəsinin müqayisəli bazası və valyutanın alıcılıq qabiliyyətinin təyin olunmasında əsas kimi də istifadə edilir. Bir qayda olaraq minimum 2-3 ilə hesablanan istehlak səbəti Fransada -230, ABŞ- da -300, Böyük Britaniyada -350, İtaliyada -530 ərzaq və xidmətdən ibarətdir.

Yaşayış minimumu və ya minimum istehlak büdcəsi insanın, ailənin həyat fəaliyyətinin (əsas fizioloji və sosial tələbləri) saxlanılması üçün minimal zəruri olan rifah və həyat vasitələri çeşididir. İnkişaf etmiş ölkələrdə bir işləyən adam üçün bu büdcəyə, həmçinin , 18 m^2 olmaqla yaşayış sahəsi, illik 6,7 qida kalorili mərkəzi isitmə sistemi, aylıq 285 litr su, aylıq 10 m^3 qaz, aylıq 50 kv/s elektrik enerjisi və illik -600 gedişlik ictimai nəqliyyatdan istifadə daxil edilir.

Təsbit edilmiş vaxt ərzində müvafiq əmtəə və xidmətlər qrupunun orta səviyyəsinin nisbi dəyişilməsini istehlak qiymətləri indeksi xarakterizə edir.

Qlobal ərzaq problemi ilə bağlı bu və ya digər ölkə üzrə tədqiqatlarda aclıq və yarıaclıq kimi göstəricilər də dəyərləndirilir.

Prof. E.A.Quliyevin fikrincə, ərzaq əlçatanlığı problemi milli iqtisadiyyatın inkişaf prioritetlərinin balanslaşdırılması və mühüm iqtisadi – siyasi istiqamətlərinin müəyyənləşdirilməsi mexanizmlərinin optimal olduğu təqdirdə daha asan və əhali üçün adekvat səviyyədə baxıla və həll

oluna bilər. Pul maliyyə siyasətinin və maliyyə - kredit sisteminin işləkliyi, əhalinin bütöv təbəqələrinin sosial-iqtisadi proseslərdə fəallığının təmin olunması, ölkə iqtisadiyyatına daxildən və xaricdən təsir edən amillərin mənfi fəsadlarının lokallaşdırılması tədbirlərinin genişləndirilməsi, yerli kontekstdə problemli məsələlərin kompleks və uzunmüddətli perspektivdə daxil olmaqla həll olunması ölkə əhalisinin ərzaq əlçatanlığının vacib meyarları kimi diqqət çəkir [5.səh. 69;70].

Aclıq orqanizmin, əsas fizioloji funksional tarazlığı – homeostazın saxlanılması üçün zəruri olan maddələrin kifayət etməyən axını ilə müşayiət edilən vəziyyətidir. Mütləq və nisbi, tam, natamam (kəmiyyətcə qidalanmama) və qismən (keyfiyyətcə qidalanmama) aclıq kateqoriyalarına bölünür. Mütləq aclıq orqanizmin həyatının saxlanılması üçün minimal qidanın çatışmazlığı və ya tamam olmaması ilə xarakterikdir. Nisbi aclıq gizli səciyyəvi mahiyyət daşıyan, xroniki olaraq keyfiyyətsiz və ya orqanizmin aktiv fəaliyyətini saxlamaq üçün zəruri vitaminləri çatışmayan ərzaq məhsulları ilə qidalanması nəticəsində təzahür edir. Qlobal miqyasda aclıq yemək rasionunda həyat üçün zəruri olan komponentlər çatışmazlığında təyinat tapan sosial hadisə və problem kimi xarakterizə edilir. Aclıq sosial fəlakət təzahürlü kütləvi hal kimi ərazidə əhalinin qırılmasına səbəb olur. Zəruri qida qəbulundan 7 dəqiqə sonra aclıq vəziyyəti dəf edilir. İnsanlar öz əmək qabiliyyətlərini sabit saxlamaq üçün elmi əsaslandırmalara görə gün ərzində azı 2600 kilokalori (1 qram suyu 1 dərəcə selsi qızdırmaq üçün tələb olunan istilik enerjisi) enerji ekvivalentində ərzaq qəbul edilməkdədir. FAO və DST-nin məlumatlarına görə, bir insanın qidalanma norması 2400-2500 kilokalori enişində baş verir. “Kritik aclıq vəziyyəti” 1000 kilokalori aşırımında təzahür edir.

Hesabata əsasən 1990-1992-ci illə müqayisədə aclıqdan əziyyət çəkənlərin sayı 216 milyon nəfər azalıb. Qeyd edilməlidir ki, dünyada aclıq çəkənlərin əksəriyyəti (65%) inkişaf etməkdə olan ölkələrdə, o cümlədən, Hindistan, ÇXR, Konqo, Banqladeş, İndoneziya, Pakistan və Efiopiyada yaşayır. Bunun nəticəsidir ki, belə ölkələrdə son 10 il ərzində aclıqla bağlı 60-dan çox üsyan baş vermişdir.

Yarıaclıq orqanizmin doyunca yeməmə və ya adekvat olmayan qidalanma ilə müşayiət olunan vəziyyətidir. Yarıaclıq qidada vitamin A, yod, dəmir kimi mikroelementlər çatışmamazlığından baş verir. Dünyanın böyük əhali təbəqəsi üçün adi vəziyyət hesab olunur. Qida zülalı (zülallar maddələr mübadiləsini idarə edən fermentlərdir) çatışmazlığını dünyada 3 milyarda yaxın insan hiss edir.

Aşağıda ayrı-ayrı dünya ölkələrində yarıaclıq göstəriciləri əks olunmuşdur.

Ayrı-ayrı dünya ölkələrində yarıaclıq keçirənlərin sayı

Ölkələr	Yarıaclıq keçirənlərin sayı (milyon nəfər)
Hindistan	198
ÇXR	150
Banqladeş	43,1
Konqo	37
Pakistan	35,2
Etiopiya	31,5
Tanzaniya	16,1
Filippin	15,2
Keniya	9,7
Sudan	8,8
RXDR	7,9
Kolumbiya	5,9
Anqola	5

İnsanların zəruri aktiv həyat tərzi keçirmək üçün hər an kifayət edəcək həcmdə təhlükəli olmayan qida məhsullarında fiziki və iqtisadi giriş imkanlarına malik olduqları situasiya ərzaq təhlükəsizliyi ilə xarakterizə olunur. Ərzaq təhlükəsizliyi hər bir dövlətin aqrar və iqtisadi siyasətinin

əsas məqsədlərindən birini təşkil edir. O, istənilən milli ərzaq təminatı sisteminin ideal vəziyyətə gətirilməsini formalaşdırır. Ərzaq təhlükəsizliyi dünya, region, milli, yerli və ev təsərrüfatları səviyyəsində təyin edilir. Ərzaq təhlükəsizliyi təminatının əsas göstəricisi kimi dünya taxıl ehtiyatlarının keçicilik həcmi və adambaşına düşən taxıl istehsalı təşkil edir. Keçici taxıl ehtiyatlarının səviyyəsi bütün il ərzində istehlakın 17%-nə (60 günlük istehlak) bərabərdirsə, ərzaq təhlükəsizliyi dayanıqlı hesab olunur. Ərzaq təhlükəsizliyi təminatının adambaşına düşən taxıl istehsalı göstəricisi dünya üzrə 327 kq təşkil edir. Bu göstərici inkişaf etmiş ölkələrdə 635, inkişaf etməkdə olan ölkələrdə isə 235 kq-a bərabərdir.

Professor E.M.Hacızadənin fikirlərinə görə, əhalinin ərzaq təhlükəsizliyi dövlətin aqrar və iqtisadi siyasətinin əsas məqsədlərindən biri kimi çıxış edir. O, istənilən milli ərzaq sisteminin ideal vəziyyətə gətirilməsinin hərəkət vektorunu formalaşdırır. Buna görə də ərzaq təhlükəsizliyinə nail olma fasiləsiz bir proses kimi daim cərəyan edərək, öz növbəsində, ölkədə aparılan ərzaq siyasətinin, o cümlədən aqrar strategiyasının reallaşmasının inkişaf prioritetlərini və icra mexanizmlərini dəyişikliklərə uğradır [4. səh. 566].

Əhalinin ərzaq təhlükəsizliyinin vəziyyəti ümumiləşdirilmiş qiymətləndirmədə aşağıdakı kimi təyin edilir:

- Ərzaqlara yetişmənin fiziki imkanlığı (ölkənin bütün ərazisində zamanın hər anında və ərazi çeşiddə qida məhsullarının mövcudluğu);
- Ərzaqlara yetişmənin iqtisadi imkanlğı (qida məhsullarının son həddə minimal ölçüdə istehlakına imkan yaradan sosial statusdan və vətəndaşın yaşayış məkanından asılı olmadan gəlirlər səviyyəsi);
- İstehlak üçün ərzaq təhlühəsizliyi (əhalinin sağlamlığına zərər vura biləcək keyfiyyətsiz qida məhsullarının istehsalı, reallaşması və istehlakın aradan qaldırılması).

Ərzaq təhlükəsizliyi cəmiyyət həyatının bütün sahəsində əks olunaraq çox ölkələr üçün daha böyük ölçülü təhlükə kimi sürəkli qalmaqdadır. Məhz buna görə də əhalinin ərzaq təhlükəsizliyi problemi dünya birliyi tərəfindən daha yüksək səviyyədə diqqətdə saxlanılır, problem qlobal və regional təsisatlarda daimi müzakirə predmetinə çevrilir. Dünya təhlükəsizliyi konsepsiyası ilk dəfə 1973-cü ildə FAO tərəfindən irəli sürülmüşdür. Qlobal ərzaq təhlükəsizliyi bütün dünya ölkələri üçün ərzaq malları bazarında qida mıhsullarına çıxış stabilliyinin saxlanılması şərtliyini ehtiva edir. “Dünya ərzaq təhlükəsizliyinin Roma bəyannaməsində” (Roma 13 noyabr 1996-cı il) hər bir insanın ərzaq təhlükəsizliyi hüququ hər bir dövlətin öhdəlikləri sırasına daxil edilmişdir. Dünya öhdəlikləri üzrə ərzaq təhlükəsizliyi təminatı müvafiq “Ərzaq Təhlükəsizliyi İndeksi” üzrə hesablanır.

Qlobal ərzaq təhlükəsizliyi problemi çoxşaxəli və çoxplanlıdır. O, eyni zamanda təbii və sosial iqtisadi motivlidir. Qlobal ərzaq təhlükəsizliyi probleminin kəskinləşməsinin bir qütbündə ərzaq çatışmazlığı dayansa da, onun digər qütbündə demoqrafik faktlar durur.

Dünya əhalisi artır, əzaq tələbləri də müvafiq olaraq yüksəlir. Bir sıra beynəlxalq ekspertlərin fikrincə, dünya əhalisinin illik 80 milyon artımında belə yaxında 20 il ərzində dünyanın ərzaq tələbi təmin olunacaqdır.

Qlobal ərzaq təhlükəsizliyinin təmin edilməsi yolları

Qlobal ərzaq təhlükəsizliyinin təmin edilməsində müxtəlif yollar mövcuddur. Bunlar içərisində isə daha çox ekstensiv və intensiv üsullar önə çəkilir. Ekstensiv yol yeni kənd təsərrüfatı və balıqmədən komplekslərinin mənimsənilməsini ehtiva edir. Bunun üçün müvafiq texniki xərclər və rasional proqram işləmələri tələb olunur. İntensiv yol isə aqrotexniki mədəniyyətin inkişafı, yüksək məhsul verən bitki növlərinin, böyük məhsul verimli ev heyvanları və quş cinslərinin dövriyyəyə çıxarılması, mexanikləşmə, kimyalaşma, meliorasiya və s. kimi məhsuldarlıq artımı elementlərini birləşdirir. Hər iki üsul dünya ərzaq problemlərinin həllində və qlobal ərzaq təhlükəsizliyinin davamlı təmin edilməsi üçün olduqca zəruri hesab oluna bilər. Əslində, qlobal ərzaq təhlükəsizliyinin təmin edilməsində, hələ ki, bu üsullardan daha yaxşısı tapılmamışdır. Lakin bununla belə, hər iki istiqamətdə tədbirlərin həyata keçirilməsində problemlər mövcuddur. Ekstensiv strategiyada ərazi və torpaq problemi qarşıda dururs a, intensiv istiqamətdə genetika və seleksiya,

habelə aqrotexniki nailiyyətlər dayanır. Bu gün genetik modifikasiya olunmuş ərzaq məhsullarından geniş istifadə olunur.

Prof. E.Quliyevin fikirlərinə görə dünya təcrübəsindən və xüsusilə də qida təhlükəsizliyi üzrə daha çox uğurlar əldə edən dövlətlərin təcrübəsindən baxsaq, qida təhlükəsizliyi üzrə dövlət siyasətinin əsasında, ilk növbədə, milli maraqlar, ölkə əhalisinin sağlamlığına təminat verən prioritet yanaşmalar, əhalinin rifahının və uzunömürlülüyünün yüksəldilməsi, uşaqların normal boy artması və fizioloji baxımdan inkişaf etməsi, bir sözlə insanların sağlam və gümrah böyüməsi, fəaliyyət göstərməsi üçün ekoloji cəhətdən təmiz və insan sağlamlığı üçün təhlükəli olmayan qida məhsullarının istehsalı və ehtiyatlarının yaradılması, yerli istehsalın stimullaşdırılması və mühüm qida məhsulları üzrə idaxalın səmərəliliyinin artırılması yer almalıdır [2, səh. 215].

İnkişaf etmiş ölkələr öz təcrübələrinə istinadən yaxşı bilirlər ki, bir çox spesifik şərtləri ilə kənd təsərrüfatı iqtisadiyyatın digər sektorları ilə müqayisədə rəqabətqabiliyyətli deyildir. Elə buna görə də sahəyə dövlət dəstəyi daim artırılır. Statistika göstərir ki, Avropada fermerlərə dəstək xərcləri istehsal məhsulunun maya dəyərinin 40%-ni təşkil edir. Konkret olaraq, aqrar sektora dövlət subsidiyalarının xüsusi çəkisi ABŞ- da 30%, Kanadada 45%, Yaponiyada 66%, İsveçdə 59%, Finlandiyada 71%, Norveçdə isə 77% təşkil edir. Qeyd olunmalıdır ki, bu ölkələrdə aqrar sektor yalnız subsidiyalarla deyil, həm də əhatəli institusional alət və mexanizmlərlə də dəstəklənir. Misal olaraq göstərmək olar ki, bu məsqədlə ABŞ-da kompensasiya ödənişləri və xarici ticarət astanaları sistemi yaradılmış, bu da, öz növbəsində, idxalı xeyli məhdudlaşdırmış, ixracı isə müvafiq olaraq stimullaşdırmışdır. Əhalinin ərzaq təhlükəsizliyinin təminatında Yaxın Şərqin böyük neft ixracatçısı ölkələri xüsusi starteji planlarla çıxış edirlər. Səudiyyə Ərəbistanı səhra şəraitinə baxmayaraq, özünü taxılla tam təmin edir və hətta müəyyən qədər də bu məhsul üzrə ixracı prosesini həyata keçirir. İndi Küveyt, BƏƏ müxtəlif növ meyvə-tərəvəz, gül ixracatında da üstünlüklərə nail olmuşdur. Bundan başqa, bir sıra dövlətlər ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və təminatı məqsədilə ərzaq təhlükəsizliyi doktrinaları qəbul etmişlər.

Ərzaq məsələsinin işlənib hazırlanmasında beynəlxalq təşkilatların böyük rolu vardır. Bu sırada ən böyük beynəlxalq təşkilat BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı - FAO hesab edilir. FAO 1945-ci il 16 oktyabrda Kanadanın Kvebek şəhərində təsis olunmuşdur. Mənzil qərargahı İtaliyanın paytaxtı Roma şəhərində yerləşir və onu 174 ölkə ilə Aİ təmsil edir. Təşkilatın ali orqanı iki ildən bir çağırılan konfransdır. FAO-nun devizi – “Aclıq olmadan dünya qurmağa kömək et” dir. Bu təşkilatın əsas funksiyaları aclığın ləğvi, qidalanmanın və həyat keyfiyyətinin yaxşılaşdırılması, ərzaq, kənd təsərrüfatı, meşəçilik və balıqçılıq məhsullarının istehsalı, emalı və bölgüsünün yaxşılaşdırılması və kənd təsərrüfatı rayonlarının inkişafına, kənd əhalisinin həyat şəraitinin yaxşılaşdırılmasına köməklik göstərilməsi ilə bağlıdır. Təşkilatın 5 ərazi (Afrika, Asiya Sakit Okeanı, Avropa, Latın Amerikası, Karib hövzəsi və Yaxın Şərq) şöbəsi vardır. Qeyd olunmalıdır ki, FAO-dan öncə bu istiqamətdə əsas təşkilat kimi 1974-cü ildə yaradılmış Ümumdünya Ərzaq Şurası fəaliyyət göstərmişdir. Təşkilatın 1977-ci ildə fəaliyyəti dayandırılmış və funksiyaları FAO-ya keçirilmişdir.

Dünya ərzaq probleminin həllində BMT-nin ixtisaslaşmış təşkilatı kimi1977-ci ildən fəaliyyətə başlamış Kənd Təsərrüfatının inkişafı üzrə Beynəlxalq Fond inkişaf etməkdə olan ölkələrin ərzaq vəziyyətinin yaxşılaşdırılmasına köməklik göstərməkdə mühüm əhəmiyyət daşıyır. Fondun ali məqsədi inkişaf etməkdə olan ölkələrdə kənd yoxsulluğunun ləğvidir. Mənzil-qərargahı İtaliyanın paytaxtı Roma şəhərində yerləşir.

FAO və DST ərzaq məhsullarına vahid beynəlxalq standartların yaradılması üzrə birgə proqramı həyata keçirirlər. Bu məqsədlə 1963-cü ildə Kodeks Alimentarius (latınca Codex Alimentarius-qida kodeksi) adlanan beynəlxalq komissiya təşkil edilmişdir. Komissiya işində FAO komitələri tərəfindən qəbul edilmiş tövsiyələrə əsaslanır və onun əsas vəzifəsi standartların layihələrinin hazırlanması üzrə işləri koordinasiya etməkdir.

İqtisadçı alim A.Abbasovun fikirlərinə görə dünya miqyasında beynəlxalq ərzaq təhlükəsizliyi sistemini reallaşdırmaq məqsədilə ixtisaslaşmış institusional orqanlar fəaliyyət göstərir. Həmin

qurumlar Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondu, Beynəlxalq Fövqaladə Ərzaq Ehtiyatları Fondu, Ərzaq yardımı Haqqında Beynəlxalq Konvensiya, inkişaf etməkdə olan ölkələrdə ərzaq idxalına çəkilən xərclərin maliyyələşməsi üzrə Beynəlxalq Valyuta Fondunun müvafiq orqanları dünya miqyasında ərzaq probleminin kəskinləşməsinin qarşısını almaq, iqtisadi cəhətdən zəif ölkələrdə aclıq təhlükəsini aradan qaldırmaq üçün fəaliyyət göstərir [4; səh. 172;173].

Ümumiyyətlə müasir dövrdə dünyada ərzaq təhlükəsizliyi və ərzaq əlçatanlığı ilə bağlı bir sıra ciddi problemlər mövcuddur. 2025-ci ilin son hesabatlarına əsasən bu sahədəki vəziyyət belədir.

Qlobal Ərzaq Təhlükəsizliyi Problemləri

- Aclıq və qida çatışmazlığı:

2024-cü ildə dünyada təxminən 673 milyon insan aclıqla üzləşib, bu da qlobal əhalinin 8,3%-ni təşkil edir. Bu rəqəm əvvəlki illərlə müqayisədə bir qədər azalsa da, Afrika və Qərbi Asiyada aclıq artmaqda davam edir.

- Qida inflyasiyası:

Son illərdə ərzaq qiymətləri ümumi inflyasiyadan daha sürətlə artıb. Məsələn: 2023-cü ilin yanvarında qida inflyasiyası 13,6% səviyyəsinə çatıb, bu da ümumi inflyasiyadan 5,1 faiz bəndi yüksəkdir.

- Sağlam qidalanmanın əlçatan olmaması:

2024-cü ildə 2,6 milyard insan sağlam qidalanma üçün lazım olan ərzaqları ala bilməyib. Bu xüsusilə aşağı gəlirli ölkələrdə daha kəskin hiss olunur.

Ərzaq əlçatanlığına təsir edən amillər də mövcuddur.

- İqlim dəyişikliyi: Ekstremal hava hadisələri (quraqlıq, daşqın, fırtına) kənd təsərrüfatına ciddi zərbə vurur və məhsuldarlığı azaldır.
- Münaqişələr və müharibələr, silahlı qarşıdurmalar ərzaq istahsalını və tədarük zəncirini pozur.
- İqtisadi şoklar. Pandemiya və qlobal iqtisadi dalğalanmalar ərzaq bazarlarında qeyri-sabitlik yaradır.
- Siyasət və idarəetmə. Bəzi ölkələrdə ərzaq təhlükəsizliyi ilə bağlı siyasətlərin zəifliyi və koordinasiyanın olmaması vəziyyəti daha da çətinləşdirir.

Bu sahədə daha ətraflı məlumat BMT-nin 2025-ci il ərzaq təhlükəsizliyi hesabatında və UNİCEF – in qida əlçatanlığı daxilində geniş məlumat verilmişdir.

Azərbaycanda isə ərzaq təhlükəsizliyi sahəsində vəziyyət ümumilikdə müsbət istiqamətdə inkişaf edir. Lakin bəzi çağırışlar da qalmaqdadır. Son illərdə həm beynəlxalq təşkilatların, həm də yerli qurumların təşəbbüsləri bu sahədə dayanıqlı sistemlərin qurulmasına yönəlib. Ölkəmizdə ərzaq təhlükəsizliyinin son göstəriciləri və təşəbbüsləri də mövcuddur, müsbət addımlar atılır. Misal olaraq FAO-nun qiymətləndirilməsini göstərə bilərik. BMT-nin Ərzaq və Kənd təsərrüfatı Təşkilatı (FAO) Azərbaycanda ərzaq təhlükəsizliyi sistemlərinin qurulmasını dayanıqlı və inklüziv adlandırıb. FAO nümayəndəsi Nasar Hayat bildirib ki, bu sahədə Azərbaycan liderlik göstərir və beynəlxalq çərçivələrdə inteqrasiya olunmuş sistemlər qurur. Daha sonra Milli qurumların rolunu da misal göstərmək olar. Kənd təsərrüfatı Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyi və Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu bu sahədə əsas tərəfdaşlardır və FAO ilə sıx əməkdaşlıq edirlər və s. Bunlardan əlavə, ADB və Araz Supermarket layihəsi də bu sahədə geniş vüsət alıb. Asiya İnkişaf Bankı (ADB) və Araz Supermarket arasında imzalanmış saziş çərçivəsində 200 yerli fermer tədarük zəncirinə daxil edilib, çoxsaylı iş yerləri açılıb, keyfiyyətli və əlçatan qida məhsulları təmin olunub. Bu sırada mövcud çağırışlar da olunur. Azərbaycanda fermerlərin əksəriyyəti kiçik sahibkarlardır və onlar iqlim dəyişiklikləri, su çatışmazlığı və bazara çıxış imkanlarının məhdudluğu kimi problemlərlə üzləşirlər. İqlim riskləri, torpağın şoranlaşması, yeni zərərvericilərin yayılması və temperaturun artması kənd təsərrüfatı məhsuldarlığını risk altına alır.

Azərbaycan “Aclığa son” adlı BMT – nin Dayanıqlı İnkişaf Məqsədinə uyğun olaraq ərzaq təhlükəsizliyi və qidalanma sahəsində milli göstəricilər müəyyən edib. Bu göstəricilər rəsmi SDG portalında təqdim olunub.

Nəticə və tövsiyələr

Dünyada ərzaq təhlükəsizliyini təmin etmək üçün:

- Dayanıqlı kənd təsərrüfatı sistemləri qurulmalı;
- Qida qiymətlərinin sabitliyi üçün effektiv siyasətlər tətbiq olunmalı;
- Aşağı gəlirli əhali üçün sosial müdafiə proqramları gücləndirilməli;
- Qida təhlükəsizliyi üzrə maarifləndirmə aparılmalı - istehlakçılar arasında sağlam qidalanma və ərzaq israfının qarşısının alınması təşviq edilməlidir və s.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı". Azərbaycan Respublikası Prezidentinin 14 iyul 2017-ci il tarixli Sərəncamı.
2. Quliyev E.A. Qida təhlükəsizliyinin gücləndirilməsi problemləri və starteji istiqamətləri. "Kooperasiya" nəşriyyatı – 2020. Səh. 215.
3. Hacızadə E.M. Dünya iqtisadiyyatı və Azərbaycan. Səh.566.
4. Abbasov A.F. Ərzaq təhlükəsizliyi. Bakı -2007. Səh 172-173.
5. Quliyev E.A. Qlobal ərzaq təhlükəsizliyi; reallıqlar, çağırışlar və perspektivlər. Bakı – 2018, səh. 69-70.

Арзу Нуреддин кызы Рустамова
д.ф.э. Азербайджанского Университета Кооперации
arzurustamova61@gmail.com

Глобальная продовольственная проблема и направления обеспечения продовольственной безопасности

Резюме

Цель презентации - производство, распределение, обмен и потребление продуктов питания заключается в сохранении функциональности мировой хозяйственной системы.

Методология исследования-в исследовательской работе использовались предложения, нововведения, методы сравнительного анализа и системного подхода.

Прикладная значимость исследования - сохранение продовольственной безопасности под влиянием глобальных климатических изменений в современную эпоху, расширение, а также увеличение производства продуктов питания в период развития технологий, развитие отраслей сельскохозяйственного сектора, а также аграрного сектора на основе высоких технологий, обеспечение населения здоровым питанием.

Результат продвижения - создание регулируемых на международном уровне национальных продовольственных запасов, международная защита развитых стран от негативных проявлений процесса их глобализации за счет неуклонного увеличения их доли в международной торговле сельскохозяйственной продукцией и др. предназначен для записи вопросов.

Оригинальность и научная новизна исследования - необходимо усилить систему предварительного оповещения о нехватке продовольствия, осуществлять мониторинг рынков на международном уровне, вкладывать больше инвестиций , формировать механизмы саморегулирования продовольственных товаров каждой страны и т.д. предусмотрены такие вопросы, как.

Ключевые слова: международная продовольственная безопасность, сельскохозяйственная продукция, продовольственное снабжение, глобальная продовольственная проблема.

Arzu Nureddin Rustamova
PhD Azerbaijan Cooperation University
arzurustamova61@gmail.com

Global food problem and food security directions

Summary

The purpose of the presentation - the production, distribution, exchange and consumption of food-is to preserve the functionality of the world economic system.

Methodology of the study-in the research work, proposals, innovations, methods of comparative analysis and systematic approach were used.

The applied significance of the research is the preservation of food security under the influence of global climate change in the modern era, the expansion and increase of food production during the period of technological development, the development of agricultural sectors, as well as the agricultural sector based on high technologies, providing the population with a healthy diet.

The result of the promotion is the creation of internationally regulated national food stocks, international protection of developed countries from the negative effects of their globalization process due to a steady increase in their share in international agricultural trade, etc. It is intended for recording questions.

The originality and scientific novelty of the research - the system of advance notification of food shortages should be strengthened, monitoring of markets on an international scale , investing more investments, the formation of mechanisms of self-regulation of food products of each country, etc. such issues are intended.

Keywords: international food security, agricultural products, food supply, global food problem.